# Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı - 95

*Əziz oxucular!*

**Ölkənin qabaqcıl teatrlarından biri olan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı 95-ci mövsümünü yaşayır. Bu sayımızdan başlayaraq, teatrın keçdiyi tarixi yaradıcılıq yoluna həsr olunmuş silsilə materiallar dərc etməyə başlayırıq.**

*(Əvvəli ötən sayımızda)*

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 60-cı illərdəki fəaliyyəti xüsusilə səmərəli olmuş, öz inkişafı prosesində ən məhsuldar dövr kimi qiymətləndirilmişdir. Teatrın baş rejissoru həssas pedaqoq, mahir təşkilatçı Zəfər Nemətovun bu sahədəki işi xüsusilə fərqlənmişdir. Onun baş rejissor olduğu çoxillik fəaliyyəti dövründə teatrda yeni dramaturq, aktyor, rejissor nəsli yetişmişdir. Məhz o illərdə teatr ideya-bədii istiqamətində və pedaqoji sahədə yüksək səviyyəyə qalxa bilmişdir. Xüsusilə, ailə və məktəb əlaqələrinin vəhdəti üçün əsaslı zəmin yaradılmışdır.

Dramaturqlardan Rauf İsmayılovun, İskəndər Coşqunun, Əfqan Əsgərovun, Hüseyn Nəcəfovun, Qeybulla Rəsulovun "İki həyat", "Komsomol poeması", "O, mənim oğlumdur", "Valya Kotik", "Əlvida, Hindistan" əsərləri bilavasitə Zəfər Nemətovun rəhbərliyi, istedad və bacarığı sayəsində sənət nümunəsinə çevrilmişdir.

**Əminə Yusifqızı, Solmaz Qurbanova, Firdovsi Naibov, Zərnişan Fətəliyeva, Sona Babayeva, Həsən Əbluç, Viktor Semerenko, İvetta Ryabova, Arnold Xarçenko, Nelli Məmmədova, Tatyana Xaritonova və başqaları məhz Zəfər Nemətovun pedaqoq-rejissor kimi yetişdirdiyi istedadlı aktyorlar idi.**

1967-ci ildə ilk dəfə təsis olunmuş Respublika Lenin komsomolu mükafatı laureatı adına "Komsomol poeması" tamaşasının bir qrup yaracıdıcı heyəti - quruluşçu rejissor Zəfər Nemətov, rəssam Altay Səidov, aktyorlardan Yusif Vəliyev, Hüseynağa Sadıxov, Süleyman Ələsgərov, Osman Hacıbəyov, bəstəkar Fikrət Əmirov və dramaturq İskəndər Coşğun layiq görüldü. Yarım əsrlik fəaliyyəti dövründə Gənc Tamaşaçılar teatrının səhnəsində Azərbaycan, rus və dünya klassiklərinin inciləri özünə layiqli yer tutdu. Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan", Əbdürrəhim Bəy Haqverdiyevin "Bəxtsiz cavan", Cəfər Cabbarlının "Yaşar", Nikolay Qoqolun "Müfəttiş", Viktor Hüqonun "Qavroş" və başqa pyeslər teatrın repertuarını zənginləşdirməkdə mühüm rol oynamışdır.

## UNUDULMAZ SƏNƏTKARLARIMIZ

Azərbaycan milli teatr sənətinin ayrılmaz qolu olan Dövlət Gənc Tamaşaçılar Teatrı bir sıra müqtədir səhnə xadimləri yetişdirmişdir. Onlardan bir çoxu sonradan öz yaradıcılığını Azərbaycan Dövlət Dram Teatrında davam etdirmişdir. Xalq artistləri Ağadadaş Qurbanov, Əliağa Ağayev, Süleyman Ələsgərov, Firəngiz Şərifova, Yusif Vəliyev, Hüseynağa Sadıqov, Lütfi Məmmədbəyov, Aleksey Lejnyov, Georqi Sıqankov, Xuraman Hacıyeva, Gülşən Qurbanova, Solmaz Qurbanova, Ağaxan Salmanlı, Vaqif Əsədov, Əməkdar artistlər Məmmədağa Dadaşov, Osman Hacıbəyov, Rəhilə Məlikova, Yusif Dadaşov, Susanna Məcidova, Məfxurə Yermakova, Firdovsi Naibov, Tamara Razumovskaya, Anatoli Dobronetski, Arnold Xarçenko, Cəvahir İskəndərova, Ruxsarə Ağayeva, Kazım Ziya Kazımzadə, Süsən Məcidova, Aliyə Terequlova, Tamara Paşazadə, Mariya Yermakova, Rəhilə Məlikova, Əliheydər Həsənzadə, Əliməmməd Atayev, Rauf Qəniyev, Məxfurə Yermakova, Həsən Əbluç, aktyorlardan Əhməd Əhmədov (Rumınski), Niyazi Əhmədov, Rauf Qəniyev və b. Azərbaycan teatrının tarixinə adları böyük hərflərlə yazılmış sənətkarlardır.

**Unudulmaz sənətkarların sırasında müasir dövrün aktyorlarından Xalq artisti Ağaxan Salmanov, Əməkdar artistlər Kübra Dadaşova, Rafiq Hüseynov, Mübariz Paşayev, Azər Mirzəyev, Atabala Səfərov, Almaz Mustafayeva, Elşən Çarhanlı, aktyorlardan Ramiz Sərkərov, Ələsgər Qurbanəliyev və dünyasını dəyişmiş digər sənətkarlarımız kollektivimizin fərəhlə xatırladıqları sənətkarlardır.**



Vaxtı ilə teatrda maraqlı quruluşlar vermiş Xalq artistləri Aleksandr Tuqanov, Məhərrəm Haşımov, Tofiq Kazımov, Ağakişi Kazımov, Azərpaşa Nemətov, əməkdar incəsənət xadimləri Zəfər Nemətov, Hüseyn Sultanov, Ulduz Rəfili-Əliyeva, Nikolay Ovçinnikov, əməkdar artist Kərim Həsənov kimi rejissorlar Azərbaycan rejissurasına silinməz izlərini həkk etmişlər.

Xalq rəssamı Tahir Tahirov, Əməkdar incəsənət xadimləri Nikolay Ovçinnikov, Sadıq Şərifzadə, Elçin Məmmədov (Dövlət mükafatı laureatı), Əməkdar rəssam Altay Səidov, rəssam Əsgər Həsənov GTT-da tamaşaların bədii-estetik mahiyyətinin açıqlanmasında yüksək səviyyədə bədii tərtibat vermişlər.

## Alman-rus müharibəsində fərqlənən əməkdaşlarımız (1941-1945-ci illər)

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının əməkdaşlarından bir qrupu Sovet-alman müharibəsində (Sovetlər birliyi zamanı "Böyük Vətən Müharibəsi" adlanırdı.- red.) iştirak etmiş, fəal və cəsur döyüşçü kimi fərqlənmiş, müxtəlif orden və medallarla təltif olunmuşlar.

**Azərbaycan bölməsi üzrə:**

Hüseynağa Sadıqov - "İgidliyə görə", "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə";

Məmmədağa Dadaşov - "Qafqazın müdafiəsinə görə", "İgidliyə görə", "Almaniya üzərində qələbəyə görə";

Süleyman Ələsgərov - "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə";

Yusif Vəliyev - "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə";

Əliheydər Həsənzadə - "Qafqazın müdafiəsinə görə"; "Almaniya üzərində qələbəyə görə";

Susanna Məcidova - "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşlar.

Teatrın əməkdaşlarından Əlizaman Qasımov, Rəhilə Məlikova, Rüxsarə Ağayeva, Sərhəd Mustafayev də konsert briqadalarının tərkibində çıxış etmişlər.

**Rus bölməsi üzrə:**

Ulduz Əliyeva - "Moskvanın müdafiəsinə görə";

Anton Dobreneçki - "Almaniya üzərində qələbəyə görə";

Xədicə Məmmədova - "Almaniya üzərində qələbəyə görə";

Fuad Xəlilov - "İgidliyə görə" və "Qafqazın müdafiəsinə görə";

Tamara Razumovskaya - "Böyük Vətən Müharibəsində əmək nailiyyətlərinə görə" döş nişanı ilə;

Mirzə Şükürov - "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşlar.

## Gənc Tamaşaçılar Teatrının direktorları

Vasili Şneybax (1928-1935)
Yefim Erinçek - (1936-1939)
Məhərrəm Haşımov (1939-1940)
Mahmud Allahverdiyev (1941-1949)
Atamoğlan Rzayev (1949-1954)
Əli İsmayılov (1954-1964)
Bala Qasımov (1964-1973)
Eldar İlyasov (1973-1975)
Məmməd Mərdanov (1976-1986)
Aydın Teymurbəyov (1987-1988)
Kamal Əzizov (1988-2006)
Mübariz Həmidov (2006-2018)
Naidə İsmayılzadə (2018-ci ildən)

## Gənc Tamaşaçılar Teatrının baş rejissorları

Pavel Velski - 1928-1932
Qabriel Kornelli - 1933-1936
Soltan Dadaşov - 1932-1937
Pyotr Jarikov - 1935-1937
Aleksandr Tuqanov - 1937-1943
Ağaəli Dadaşov - 1947-1949
Kərim Həsənov - 1949-1952, 1953-1954
Tofiq Kazımov - 1952-1953
Zəfər Nemətov - 1954-1969
Hüseyn Sultanov - 1970-1972
Ulduz Əliyeva-Rəfili - 1973 1975
Ağakişi Kazımov - 1976-1983
Azər Paşa Nemət -1983-1988
Ağakişi Kazımov - 1988-2002
Cahangir Novruzov - 1991-1995
Loğman Kərimov - 2000-2009
Cənnət Səlimova - 2009-2012
Bəhram Osmanov - 2012-2021
Mehriban Ələkbərzadə - 2022-ci ilin mart ayının 1-dən

## Gənc Tamaşaçılar Teatrının bəstəkarları

Hər bir tamaşanın təsir gücünü artıran bədii-köməkçi vasitələrdən ən üstünü musiqi dramaturgiyasıdır. GGT-nin isə fərəh doğuran bəstəkarları olmuşdur:

Niyazi
Soltan Hacıbəyov
Fikrət Əmirov
Cahangir Cahangirov
Tofiq Quliyev
Şəfiqə Axundova
Polad Bülbüloğlu
Oqtay Kazımi
Emin Sabitoğlu
Ramiz Mirişli
Əşrəf Abbasov
Səyavuş Kərimi
Ruhəngiz Qasımova
Elmira Nəzirova
Zakir Bağırov
Qənbər Hüseynli
Cavanşir Quliyev
Gövhər Həsənzadə
Vaqif Gərayzadə
Adil Bəbirov
Aydın Əzimov
Sebastian - Danimarka
İqor Korliç - Xorvatiya
Arkadi Mandjiyev - RF Kalmıkiya Respublikası
Aydın Əzimov
Yelena Atraşkeviç -Ukrayna
Rəşid Şəfəq
Sərdar Fərəcov
Cəfər Əliyev
Firudin Allahverdi
Cəmalə Nəsirova
Vasif Hüseynli
Rüfət Ramazanov

*(Davamı növbəti sayımızda...)*



**Rafiq RƏHİMLİ,**
**Əməkdar mədəniyyət işçisi**

Azad Azərbaycan.- 2022- ci il.- 22 dekabr.- S. 7.